**Ağcabədi Rayon Statistika İdarəsi tərəfindən "Ümumdünya statistika günü" ilə əlaqədar tədbir keçirilmişdir**

16 oktyabr 2025-ci il tarixində Ağcabədi Rayon İcra Hakimiyyətinin iclas zalında "Ümumdünya Statistika Günü" ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, RİH başçısının müavini Toğrul Bünyadov və aparatın əməkdaşları, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, idarə, təşkilat rəhbərləri, sahibkarlar və idarənin kollektivi, iştirak ediblər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən tədbiri Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı cənab Rafil Hüseynov giriş nitqi ilə açaraq Dövlət Statistika Komitəsinin idarəetmə orqanlarını, müəssisələri, idarə və təşkilatları, işgüzar dairələri və geniş ictimaiyyəti statistik məlumatlarla təmin edən ümumdövlət sistemi olduğunu, "Ümumdünya Statistika Günü"nün rəsmi keçirilən bir tədbir olaraq bizim rayonumuzda da geniş və dolğun şəkildə keçirildiyini bildirmişdir.



İdarənin rəisi Elsevər İsmayılov çıxış edərək bildirmişdir ki, “Ümumdünya Statistika Günü” hər 5 ildən bir 20 oktyabrda qeyd olunan, statistik məlumatların əhəmiyyətini vurğulayan qlobal bir  tədbirdir. Bu gün, statistik məlumatlar dünya miqyasında sosial, iqtisadi və inkişaf məqsədləri üçün istifadəsini təşviq edir və statistikanın əhəmiyyətini anlamağa kömək edir. “Ümumdünya Statistika Günü” Birləşmiş Millətlər Təşkilatının (BMT) üzv ölkələrinin dəstəyi ilə keçirilir və hər beş ildən bir müxtəlif mövzular altında qeyd olunur. “Ümumdünya Statistika Günü”nün qeyd olunmasında əsas məqsəd statistika elminin əhəmiyyətini vurğulamaq, ictimaiyyətin diqqətini bu sahəyə yönəltmək, həmçinin statistik məlumatların əlçatanlığını və keyfiyyətini artırmaqdır.



Ağcabədi Rayon İcra Başçısının müavini Toğrul Bünyadov isə öz çıxışında qeyd etmişdir ki, “Ümumdünya Statistika Günü” müxtəlif devizlərlə qeyd olunur. Lakin bu günün əsas ideyası dəyişməz qalır etibarlı məlumat, peşəkarlıq və innovasiya. Bu prinsiplər dünyada sabitlik, tərəqqi və davamlı inkişafın təmin olunmasında statistikanın rolunu daha da gücləndirir. Statistika müasir dünyada sadəcə rəqəmlərin toplanması deyil, həm də cəmiyyətin real mənzərəsini əks etdirən güzgü rolunu oynayır. İqtisadiyyatın inkişaf templəri, əhalinin demoqrafik göstəriciləri, təhsil və səhiyyənin vəziyyəti, eləcə də sosial rifahın səviyyəsi məhz statistik məlumatlar əsasında müəyyən edilir. Bu göstəricilər olmadan gələcəyə dair düzgün strategiya qurmaq və effektiv idarəetmə həyata keçirmək mümkün deyil.



Sonda Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı cənab Rafil Hüseynov Ağcabədi Rayon Statistika İdarəsinin rəisi və əmakdaşlarını “Ümumdünya Statistika Günü” ilə əlaqədar olaraq təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzu edib.